06 (1312) 15-21 fevral 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB

***Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib.***

Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olundu.

***Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad ABDULLAYEV çıxış edərək dedi:***

- Hörmətli xanımlar və cənablar.

Bildiyiniz kimi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2024-cü il 13 fevral tarixli qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə andiçməyə dəvət olunur.

***Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içdi:***

- Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

***Sonra Prezident müqəddəs "Qurani-Şərif"ə əl basaraq and içdi:***

- Əlimi "Qurani-Şərif"ə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq olacağam, onları daim uca tutacağam.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.

Prezident İlham Əliyev təzim edərək, Azərbaycan Respublikasının Dövlət Bayrağını öpdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində nitq söylədi.




## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XATİRƏSİ EHTİRAMLA YAD EDİLİB

Fevralın 14-də andiçmə mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri Xiyabana gedərək, müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsini ehtiramla yad ediblər.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət ediblər.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarlarının üstünə də gül dəstələri düzülüb.

## DÖVLƏT BAŞÇISI YENİ "AKINCI" HÜCUM PUA-LARININ UÇUŞUNU İZLƏYİB




Fevralın 9-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və oğlu Heydər Əliyev Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində olub və silahlanmaya yeni qəbul edilən "Akıncı" hücum PUA-larının uçuşunu izləyiblər.

Prezident İlham Əliyev PUA Akademiyasında yaradılan şəraitlə tanış olub.

Zakir Həsənov və Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar dövlətimizin başçısına Akademiyada yaradılan şərait və pilotsuz uçuş aparatları barədə məlumat veriblər. Bildirilib ki, burada hərbi qulluqçuların hazırlığı üçün hər cür şərait yaradılıb. Akademiya müasir standartlara cavab verən bütün növ zəruri texnika və avadanlıqlarla təchiz olunub.

Sonra Ali Baş Komandan hərbi obyektdə müxtəlif tipli PUA üçün uçuş-enmə zolağına gəlib. "Akıncı" hücum PUA-sının havaya qalxmasını izlədikdən sonra idarəetmə məntəqəsinə gələn Prezident İlham Əliyev burada PUA-nın idarəolunmasını praktiki həyata keçirib. PUA-nın yerə enməsini izləyən Azərbaycan Prezidenti uçuş vasitəsinin üzərinə xatirə imzasını çəkib. Daha sonra Prezident İlham Əliyev anqar komplekslərinə baxış keçirib.

Müzəffər Ali Baş Komandan burada "Akıncı" hücum PUA-sı və aviabombaları ilə də tanış olub.

## ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalqımızın müqəddəs and yeri olan Şəhidlər Xiyabanını ziyarət ediblər.

Dövlətimizin başçısı və birinci xanım Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edərək, "Əbədi məşəl" abidəsinin önünə gül dəstələri qoyublar.



## PREZİDENT İLHAM ƏLİYEV NAZİRLƏR KABİNETİ ÜZVLƏRİNİN SƏLAHİYYƏTLƏRİNİN İCRA EDİLMƏSİ HAQQINDA SƏRƏNCAM İMZALAYIB

***Fevralın 14-də Prezident İlham Əliyev Azərbaycan Respublikası Nazirlər Kabineti üzvlərinin səlahiyyətlərinin icra edilməsi haqqında Sərəncam imzalayıb.***

Azərbaycan Respublikası Konstitusiyasının 116-cı maddəsinə uyğun olaraq, Nazirlər Kabinetinin istefa verməsini nəzərə alaraq, Prezident İlham Əliyev Nazirlər Kabinetinin yeni tərkibi formalaşdırılanadək Azərbaycan Respublikası Nazirlər Kabineti üzvlərinin səlahiyyətlərinin icra olunmasını bu Sərəncamla Nazirlər Kabinetinin əvvəlki tərkibinə həvalə edib.

## DÖVLƏT BÜDCƏSİNDƏ 1,7 MİLYARD MANATLIQ PROFİSİT YARANIB

Maliyyə Nazirliyinin operativ məlumatlarına əsasən 2024-cü ilin yanvar ayında dövlət büdcəsinə 3 milyard 465,9 milyon manat vəsait daxil olmuş, büdcədən 1 milyard 723,7 milyon manat vəsait xərclənmişdir. Bu barədə Dövlət Statistika Komitəsinin aylıq hesabatında bildirilir.

Büdcənin icrasında 1 milyard 742,2 milyon manatlıq profisit (artıqlıq) yaranmışdır.

# Azərbaycan XİN Ermənistanı hərbi eskalasiyalardan çəkinməyə çağırıb




"Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan tərəfinin təxribatına qarşı gördüyü tədbirlərin eskalasiya üçün bəhanə olması ilə bağlı iddiaları tamamilə əsassızdır".
Bu fikir son hərbi təxribatlarla bağlı Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatına dair Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) şərhində yer alıb.
Şərhdə qeyd edilib ki, Azərbaycanın hərbi qulluqçusunun yaralanması ilə nəticələnən hərbi təxribatdan sonra Azərbaycan tərəfi erməni hərbi postundan irəli gələn təhlükəni aradan qaldırıb. Bu tədbir sırf cavab tədbiri idi. ***"Azərbaycan sülh prosesinə sadiqdir və Ermənistan tərəfini bu istiqamətdə səyləri təhlükə altına qoya biləcək hərbi eskalasiyalardan çəkinməyə çağırır"***, - deyə XİN-in şərhində vurğulanıb.

# Ermənistan tərəfinin təxribatı sülh prosesinə ciddi zərbədir

Fevralın 12-də Ermənistan Silahlı Qüvvələrinin növbəti hərbi təxribatı nəticəsində Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu yaralanıb. Ermənistan tərəfinin bu təxribatı Azərbaycan-Ermənistan arasında sülh prosesinə ciddi zərbədir.
Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib ki, son 4-5 ay ərzində sabitliyin hökm sürdüyü bir mühitdə bu kimi təhrikedici əməllər Ermənistan tərəfindən bəyan olunan sülh mesajları ilə açıq-aşkar ziddiyyət təşkil edir. Eyni zamanda, bu kimi təxribatın məhz Ermənistandakı Avropa İttifaqı Missiyasının müşahidə həyata keçirdiyi ərazidən baş verməsi bu missiyanın məqsəd və məramlarına dair ciddi suallar yaradır. Azərbaycana qarşı baş verən bu kimi təxribatlara görə Ermənistanın hərbi-siyasi rəhbərliyi məsuliyyət daşıyır.

# Kanada mətbuatı Ermənistanın Qərbi Azərbaycana sahiblənməsi tarixindən yazıb




"Son zamanlar ermənilər öz tarixlərini yerli amerikalıların tarixi ilə müqayisə etməyə başlayıblar. Bu, onların ABŞ və Kanada ictimai rəyini öz tərəflərinə çəkmək səylərinin tərkib hissəsidir".
Bu barədə Kanadanın nüfuzlu "Thej.ca" media platformasında dərc olunmuş "Qərbi azərbaycanlılar: İrəvan vilayətinin yerli əhalisi" sərlövhəli məqalədə qeyd olunub.
Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru, tanınmış siyasi şərhçi və jurnalist Reyçel Avrahamın müəllifi olduğu, məsələ üzrə tanınmış tarixçi alimlərin fikirləri də daxil olmaqla, ermənilərin bədnam avtoxtonluq statusu ilə bağlı iddialarının təkzibinə həsr olunmuş məqalədə bildirilib ki, ermənilərin avtoxton amerikalılar kimi yerli xalq olmaları ilə bağlı iddiaları tarixən doğru deyil.
Müəllif yazıb ki, İrəvan bölgəsinin əsl yerli sakinləri öz yurdlarından zorla qovulmuş Qərbi azərbaycanlılardır. Uzun əsrlər boyu indiki Ermənistanın əsas hissəsini təşkil edən İrəvan bölgəsi ermənilərin deyil, azərbaycanlıların tarixi vətənidir və Azərbaycanın digər ərazilərindən heç nə ilə fərqlənməyib. Belə ki, 1897-ci ildə İrəvan quberniyasında 77 min 491 Azərbaycan türkü və cəmi 58 min 148 erməni yaşayırdı. Üstəlik, bölgənin yerli əhalisi olmayan həmin ermənilərin əksəriyyəti Osmanlı hakimiyyəti ilə aralarında baş verən münaqişədən qaçaraq burada məskunlaşmışdılar.
Eyni zamanda, diqqətə çatdırılıb ki, əslində, ermənilər 1897-ci ildə İrəvan quberniyasında nəinki çoxluq təşkil etmirdilər, hətta əsrlər boyu bu ərazi üzərində suverenliyə malik olmamışdılar. Məqalədə tanınmış tarixçi Tomas de Vaala da istinadla qeyd edilib: "1375-ci ildə Kilikiyanın ilk səlibçi krallığının süqutu ilə 1918-1920-ci illərdə qısa ömür sürən Ermənistan Respublikası arasındakı dövrdə indiki "Ermənistan" adlanan ərazidə heç bir erməni dövləti və siyasi qurumu mövcud olmayıb".
Müəllif təəssüf hissi ilə diqqətə çatdırıb ki, yalnız etnik təmizləmə nəticəsində Ermənistan bu gün 98 faizi ermənilərdən ibarət monoetnik dövlətə çevrilib. Bu o deməkdir ki, yerli amerikalıların soyqırımı Amerika və Kanadanı bugünkü vəziyyətə gətirdiyi kimi, Qərbi Azərbaycan da analoji yolla Ermənistana çevrilib. Bütün deyilənlər Qərbi azərbaycanlıların İrəvan bölgəsinin əsl sakinləri olduqlarını danılmaz həqiqət kimi təsdiqləyir.

# XİN: Cozep Borrellin Azərbaycan əleyhinə əsassız iddialarını pisləyir və rədd edirik

"Fevralın 13-də Avropa İttifaqının (Aİ) xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borrellin Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ilə birgə mətbuat konfransı zamanı Azərbaycan əleyhinə əsassız iddialarını pisləyir və rədd edirik".
Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsi məlumat yayıb.
"Ali nümayəndə Cozep Borrellin hərbi təcavüz törətmiş Ermənistan tərəfinə bəraət qazandırması, Ermənistanın hərbi təxribatına göz yumulması kimi qiymətləndirilir. Təəssüf ki, Aİ tərəfi 5 ay sabitlik hökm sürəndən sonra heç bir təhrikedici amil olmadan snayper atəşi nəticəsində Azərbaycan hərbi qulluqçusunun yaralanmasına etinasız yanaşır.
Azərbaycan tərəfindən təxribata cavab olaraq atılmış addımlar tam adekvat və lokal xarakterli idi. Bu tədbirlər, həmçinin Ermənistan tərəfindən hərbi eskalasiyanın genişlənməsi cəhdlərinin qarşısını alıb.
Bununla yanaşı, bir daha vurğulamaq istərdik ki, Avropa İttifaqının ali nümayəndəsinin silahlı qüvvələrin geri çəkilməsi barədə heç bir praktiki əhəmiyyətə malik olmayan təklifi təəssüf doğurur. Aİ tərəfi nəzərə almalıdır ki, Ermənistan tərəfindən sərhədyanı bölgələrdə "Avropa İttifaqı Missiyası himayəsi" altında yerləşdirilmiş muzdlular Azərbaycan hərbçilərinin və mülki əhalisinin həyatına təhdiddir.
Azərbaycanın Qarabağ iqtisadi rayonunu könüllü olaraq tərk etmiş erməni əsilli sakinlərin məcburi köçkün kimi qələmə verilməsi və Azərbaycanın ərazisi olan bu bölgəyə münasibətdə "Dağlıq-Qarabağ" kimi mövcud olmayan adlardan istifadə edilməsi qəbuledilməzdir. Azərbaycan tərəfi dəfələrlə erməni sakinlərin öz evlərində qalması üçün müraciətlər etdiyi Aİ tərəfinə yaxşı məlumdur. Əfsuslar olsun ki, ərazini tərk etmiş erməni sakinlərə münasibətdə hətta ermənilərin dilə gətirmədiyi əvvəlki rəqəmlərə istinada ali nümayəndə tərəfindən düzəliş edilməsinə baxmayaraq, bu məsələdə də nümayəndənin erməni təbliğatının təsirində olduğu aydın görünür.
Bir daha təəssüflə qeyd edirik ki, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin sülhə yönəlmiş təşəbbüslərinə baxmayaraq, xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndə birtərəfli ermənipərəst mövqe tutaraq Azərbaycanla Avropa İttifaqı təsisatları arasında uçurum yaradır və özünü nəticə etibarilə, Azərbaycan-Ermənistan normallaşma prosesindən tamamilə təcrid edir", - məlumatda qeyd edilib.

# Terrorçuluğun maliyyələşdirilməsi cinayətlərinin araşdırılması üzrə Azərbaycanda görülən işlər yüksək qiymətləndirilir

Avropa Şurasının "Çirkli Pulların Yuyulmasına və Terrorizmin Maliyyələşdirilməsinə qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi"nin (MONEYVAL) Azərbaycan üzrə uzun müddətdir gözlənilən qiymətləndirmə nəticələrinə görə hesabatı açıqlanıb.
Hesabatda son beş il ərzində Azərbaycanda bir neçə qiymətləndirmə kriteriyası üzrə görülmüş işlər, əldə edilmiş nailiyyətlər qiymətləndirilərək məqbul hesab edilməklə, gələcəkdə bu sahələr üzrə qarşıda duran işlərə dair tövsiyələr qeyd olunub.
Onlardan terrorçuluğun maliyyələşdirilməsi cinayətlərinin araşdırılması kriteriyası üzrə nəticələr yüksək qiymətləndirilib.
Hesabatda göstərilir: ***"MONEYVAL qeyd edir ki, Azərbaycan terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə yüksək səviyyədə effektivliyə nail olub və hakimiyyət orqanları terrorçuluğu maliyyələşdirmə cinayətlərinin istintaqını uğurla aparmaq bacarıqlarını nümayiş etdiriblər (müvafiq qiymətləndirmə dövründə yeddi belə iş üzrə məhkumetmə həyata keçirilib). Eynilə beynəlxalq əməkdaşlıqda Azərbaycan yüksək effektivliyə nail olub, konstruktiv yardım göstərmək və digər ölkələrə müraciət etmək üçün dövlət orqanlarının imkanları yüksək qiymətləndirilib"***.
Qeyd edək ki, MONEYVAL tərəfindən terrorçuluğun maliyyələşdirilməsi cinayətlərinin araşdırılması üzrə Azərbaycanda görülən işlər ilk dəfədir ki, yüksək qiymətləndirilir.
Son illər terrorçuluğun maliyyələşdirilməsi və əlaqəli cinayətlərlə bağlı Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən aparılmış cinayət işləri üzrə nəticələr üzv dövlətlərin analoji orta statistikasını əhəmiyyətli dərəcədə aşır.
Diqqətəlayiq haldır ki, MONEYVAL tərəfindən son bir il ərzində göstəricilərinə görə qiymətləndirmə hesabatları dərc edilmiş ölkələr sırasında terrorçuluğun maliyyələşdirilməsi cinayətlərinin araşdırılmasının effektivliyi üzrə yüksək göstərici olaraq qiymətləndirilən yeganə dövlət Azərbaycan Respublikası olub.
Mürəkkəb geosiyasi məkanda olmasına baxmayaraq, uğurlu dövlət siyasəti nəticəsində bərqərar olmuş sabitlik və əmin-amanlıq, o cümlədən terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə istiqamətində son illər aparılan qətiyyətli işlər Azərbaycana beynəlxalq arenada investisiya və turizm üçün cəlbedici ölkə, dövlətimizin başçısı İlham Əliyevin dediyi kimi, "təhlükəsizlik adası" imicini qazandırıb.

# Əhalinin banklardakı əmanətlərinin 70 faizə qədəri milli valyutadadır

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, əmanətlərin 66,8 faizi milli, 33,2 faizi xarici valyutada qoyulub.
Milli valyutada olan əmanətlərin məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 21,1 faiz artıb, xarici valyutada qoyulmuş əmanətlərin məbləği isə 6,6 faiz azalıb.
Yanvar ayında milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,70 manata, 1 avroya 1,86 manata, 100 türk lirəsinə 5,66 manata, 100 rus rubluna 1,90 manata bərabər olub.

# Ötən ay günəş elektrik stansiyalarında elektrik enerjisinin istehsalı 4 dəfədən çox artıb



2024-cü ilin yanvar ayı üzrə respublikada elektrik enerjisinin istehsalı 13 faiz azalaraq 2 milyard 401,6 milyon kilovat-saat olub.
Energetika Nazirliyindən bildirilib ki, ay ərzində elektrik enerjisi istehsalı İES-lərdə 2 milyard 229,3 milyon kilovat-saat, SES-lərdə keçən ilin müvafiq dövrünə nisbətən 62,2 milyon kilovat-saat artımla 129,4 milyon kilovat-saat, digər mənbələr üzrə isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 15 milyon kilovat-saat artımla 42,9 milyon kilovat-saat təşkil edib. Bu dövrdə külək elektrik stansiyalarında 5,8 milyon kilovat-saat, günəş elektrik stansiyalarında 18,2 milyon kilovat-saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 18,9 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib.
Yanvar ayında elektrik enerjisinin istehsalı "Azərenerji" ASC üzrə 2 milyard 165,7 milyon kilovat-saat (İES-lərdə 2 milyard 41,1 milyon kilovat-saat, SES-lərdə 124,6 milyon kilovat-saat), Naxçıvan MR Dövlət Energetika Xidməti üzrə 30,4 milyon kilovat-saat (İES-lərdə 24,03 milyon kilovat-saat, SES-lərdə 3,65 milyon kilovat-saat, Günəş ES-də 2,74 milyon kilovat-saat), "Azərişıq" ASC üzrə külək elektrik stansiyalarında 3,74 milyon kilovat-saat, müstəqil elektrik stansiyaları üzrə isə 201,8 milyon kilovat-saat təşkil edib.
Ötən ay ərzində elektrik enerjisinin ixracı 4,4 dəfə azalaraq 116,3 milyon kilovat-saat, idxalı isə 75,9 faiz artaraq 19 milyon kilovat-saat olub.

# Azərbaycan elmini dünya səviyyəsində layiqincə təmsil edən alim

***Hər bir cəmiyyətin tərəqqisi, xalqın xoşbəxtliyi millətinə bağlı olan, öz nurunu elinə, dilinə bağlılıqdan alan və bu nuru ilə bütün cəmiyyəti aydın şəfəqlərə qovuşdurmağı bacaran ziyalılar ilə birbaşa bağlıdır. Ziyalısı olmayan cəmiyyət zülmət və qaranlıq əsarətində olar. Necə deyərlər, "başqalarına işıq saçmaq üçün insanın özündə günəş olmalıdır". Elə Azərbaycanın da bu cür işıqlı ziyalılarından biri kimi XX əsr Azərbaycan ədəbiyyatında öz dərin mütaliəsi ilə seçilən, yaradıcılığı ilə bütöv bir universitet sayılan, Azərbaycan elminin, mədəniyyətinin qüdrətli simalarından olan Mir Cəlal Paşayevin adını qeyd etmək olar. Hər zaman təbiiliyi yüksək dəyərləndirən Mir Cəlal Paşayev öz sadəliyi və alicənablığı ilə fərqlənmişdir. Çox danışmaz, amma dediyi hər sözdə dərin məqamlara toxunar, hər fikri ilə xatirələrdə qalmağı bacarardı.***





Çox uzaqgörən idi. Baxışları həm qarşısındakı insanın qəlbinin dərinliklərini görə bilirdi, həm də bir alim kimi araşdırılmasına ehtiyac duyulan ən vacib olanı duymağı bacarırdı. Bu uzaqgörənliyin nəticəsi idi ki, o, dövlətimiz, millətimiz üçün çox xeyirli, soyadının verdiyi məsuliyyəti dərindən duyaraq onu daha da ucaltmağı bacaran övladlar yetişdirə bilmişdi.

Həyatda hər bir sahədə məlumatlı olan, bilgili, dünyagörüşlü, mətləbə tez vaqif olan insana, adətən "arif adam" deyirlər. Eyni zamanda, insan üçün seçilən hər bir adın onun taleyində birbaşa mövqeyi böyükdür. Bu iki amili nəzərə aldıqda "Arif" adının bir insan həyatı üçün daşıdığı əhəmiyyəti görməmək mümkün deyil. Elə bu adın ən özəl nümayəndələrindən biri kimi görkəmli Azərbaycan yazıçısı, ədəbiyyatşünas alim, professor Mir Cəlal Paşayevin ailəsində dünyaya göz açan Arif Paşayevin adını qeyd etmək olar.

***Dövlətinə, elinə sədaqətli, ziyalılıq və kamillik nümunəsi Arif Paşayev...***

Arif Paşayev 15 fevral 1934-cü ildə Bakı şəhərində ziyalı ailəsində anadan olub. 1951-ci ildə Bakıda 164 nömrəli orta məktəbi, 1957-ci ildə Odessa Elektrotexnika Rabitə İnstitutunu radiofizika ixtisası üzrə bitirib, 1959-cu ildən Azərbaycan SSR Elmlər Akademiyasının (indiki AMEA) Fizika İnstitutunda elmi fəaliyyətə başlayıb. 1960-cı ildə SSRİ-nin aparıcı elmi mərkəzlərindən sayılan Dövlət Nadir Metallar İnstitutunun (Qiredmet) aspiranturasına qəbul olub. 1965-ci ildə "Yüksək və ifrayüksək tezliklərdə yarımkeçiricilərin parametrlərini ölçmək üçün kontaktsız üsul və cihazların işlənməsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək, texnika elmləri namizədi alimlik dərəcəsi, 1978-ci ildə isə "Yarımkeçiricilərin tədqiqində elektromaqnit üsulların fiziki əsasları, inkişaf prinsipləri və tətbiqi perspektivləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək, fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsi alıb. 1991-ci ildə Arif Paşayev "Avtonom hidroakustika informasiya sisteminin yaradılması sahəsində kompleks işlərə görə" Azərbaycan Dövlət Mükafatına layiq görülüb.

Təbii ki, əldə etdiyi bütün bu uğurlar heç də asan olmadı, qətiyyəti, möhkəm iradəsi, məqsədyönlü addımları ilə qarşısına çıxan çətinlikləri dəf etdi, atası Mir Cəlal Paşayev kimi, o da cəmiyyəti öz nuru ilə işıqlandıran ziyalılardan biri oldu. Çünki ziyalılıq bir toxumdur. Bu toxumun böyüyüb inkişaf etməsini təmin edən isə onu əhatə edən ailədir. Arif Paşayev bu ailədən dürüstlük, vicdanlılıq, ədalətlilik, xeyirxahlıq, məqsədyönlülük, məsuliyyətlilik kimi ən ali keyfiyyətləri mənimsəmişdi. Hətta Moskvada təhsil aldığı illərdə Bakıda onu nigaranlıqla gözləyən, gələcəyinə böyük ümidlər bəsləyən ailəsinin, doğmalarının qarşısında məsuliyyət hissini unutmadan gecə-gündüz oxuyur, ciddi elmi tədqiqatlar aparır, elm sahəsindəki nailiyyətləri diqqətlə izləyirdi...

Bütün bunların nəticəsidir ki, akademik 2 elmi kəşfin, 25 müəlliflik şəhadətnaməsinin, 59 patentin, 800-dən çox elmi əsərin, 105 monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifidir. Onun fizikanın müxtəlif sahələrinə həsr olunmuş 300-ə yaxın elmi əsəri xarici nüfuzlu jurnallarda çap olunub.

Arif Paşayevin elmi fəaliyyəti ulu öndər Heydər Əliyevin də daim diqqətində olmuş, məhz ulu öndərin qayğısı sayəsində ölkəmizdə 70-ci illərdə Arif Paşayevin öz tədqiqatları ilə yaratdığı yeni nəzəri-təcrübi istiqamət mühüm əhəmiyyət daşımışdır. Hətta 1972-ci ilin sentyabrında Azərbaycanda rəsmi səfərdə olan, SSRİ Elmlər Akademiyasının Prezidenti, dünya şöhrətli alim Mstislav Keldış Arif Paşayevin rəhbərlik etdiyi Azərbaycan Elmlər Akademiyası Fizika İnstitutunun Zədəsiz ölçmə və nəzarətin fiziki üsulları laboratoriyasına təşrif buyurmuşdu.

***"Avtonom hidroakustika informasiya sistemi"nin yaradılması sahəsindəki kompleks işlərinə görə 1991-ci ildə Arif Paşayev Azərbaycanın dövlət mükafatına, həmçinin ölçmə sistemləri, qurğu və cihazları müxtəlif sərgilərdə birinci dərəcəli diplom, medal və mükafatlara layiq görülüb. O, hələ sovet dövründə bu sahədəki ixtiralarına görə "SSRİ-nin ixtiraçısı" fəxri adını almış, ilk dəfə Beynəlxalq Əqli Mülkiyyət Təşkilatının "Qızıl medalı"nı Azərbaycana gətirmişdir.***

Arif Paşayev elm sahəsində qazandığı yüksək nailiyyətlərə görə **"Şöhrət", "Şərəf" və "İstiqlal"** ordenləri ilə də təltif edilib.

Arif Paşayev 28 ildir ki, "Azərbaycan Hava Yolları" QSC-nin Milli Aviasiya Akademiyasının rektorudur. Məhz onun rəhbərliyi ilə Milli Aviasiya Akademiyası intensiv inkişaf dövrünə qədəm qoymuşdur. Bu gün bu akademiyanın ölkəmiz üçün çox böyük əhəmiyyəti var. Texniki peşə məktəbi səviyyəsindən regionun ən mötəbər ali təhsil müəssisəsi səviyyəsinə yüksələn Akademiyanın müasir inkişaf səviyyəsini, maddi-texniki bazasını, dünyanın ali məktəbləri arasındakı nüfuzunu, hazırladığı ixtisaslı kadrların peşəkarlığını nəzərə alaraq, bu ali təhsil qurumunun adı indi çox yüksək səslənir.

Akademik Arif Paşayevin təşəbbüsü ilə Milli Aviasiya Akademiyasında tədris prosesi, elmi-metodiki işlər yüksək səviyyədə təşkil edilib, bir sıra kafedralar açılıb, yeni ixtisasların tədrisinə başlanılıb. Akademiyada dünya standartları səviyyəsində salınan şəhərcikdə yeni tədris korpusu, müasir idman kompleksi, tələbə yataqxanası və digər binalar tikilərək istifadəyə verilib.

Akademiyanın elmi fəaliyyətinin əsas istiqamətlərindən biri hazırkı dövr üçün xüsusi aktuallıq kəsb edən pilotsuz uçuş aparatlarının, minaların axtarılması və zərərsizləşdirilməsi üzrə radioidarəolunan robotların, radiotexniki təminat obyektlərinin texniki vəziyyətinə avtomatlaşdırılmış nəzarət sistemlərinin yaradılmasıdır. Akademiyanın müasir, Avropa tipli universitet səviyyəsinə yüksəldilməsi məhz Arif Paşayevin adı ilə bağlıdır. O, öz zəhməti, yüksək təşkilatçılıq qabiliyyəti, vətənpərvərliyi və dünyagörüşü ilə Akademiyanın fəaliyyətini düzgün istiqamətləndirdi və ölkəmizin xaricdə böyük vəsaitlər hesabına mütəxəssislər hazırlamaq və ya başqa ölkələrdən xarici mütəxəssislər dəvət etmək ehtiyacını aradan qaldırmış oldu. Akademik Arif Paşayevin rəhbərliyi ilə ölkəmiz üçün mütərəqqi əhəmiyyət daşıyan daha bir müəssisənin - Azərbaycan Mühəndislik Akademiyasının (AMA) isə əsası 2005-ci ildə qoyulub. Əsas məqsədi ölkənin alim və mühəndislərinin yaradıcılıq imkanlarının təmin edilməsi, mühəndislik fəaliyyəti sahəsində intellektual potensialın artırılması və səmərəli istifadə olunması, çox mühüm və perspektivli tədqiqat və innovasiya proqramlarının işlənib hazırlanması olan Akademiya Azərbaycanda alim və mühəndisləri bir araya gətirərək, elmi-texniki tərəqqinin və mühəndislik fəaliyyətinin inkişafına əsaslı dəstək olmuşdur. Bütün bunlar isə təbii ki, akademik Arif Paşayevin gərgin səylərinin, alim kimi zəhmətinin bəhrələridir.

"Ot kökü üstə bitər". Necə ki, Arif Paşayev Mir Cəlal Paşayevin ocağında dünyaya göz açıb, bu mötəbər ailənin ən ümdə cizgilərini öz şəxsiyyətində əks etdirmişdisə, akademik Arif Paşayev də mərhum həyat yoldaşı, Azərbaycanın görkəmli alimi, professor Aida xanım İmanquliyeva ilə birlikdə ən gözəl və zəngin ailə dəyərlərini, vətəninə, elinə sadiq, sədaqətli ziyalı olmağı övladları - Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya, M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, akademik Nərgiz xanım Paşayevaya ötürə bilmişdir.

Mehriban xanım hər zaman öz yüksək ziyalılığı, intellektuallığı, insanpərvərliyi, xeyirxahlığı, dövlətçilik dəyərlərinə sıx bağlılığı ilə seçilib, fərqlənib, tanınıb. Onun milli dövlətçiliyimizə verdiyi zəngin töhfələr, Azərbaycanın müasir inkişaf tarixində oynadığı rol, uğurla reallaşdırdığı beynəlxalq humanitar layihələr, dünyada sülhün, tolerantlığın və mədəniyyətlərarası dialoqun bərqərar olmasında çəkdiyi zəhmət, milli-mənəvi dəyərlərimizin qorunması, inkişafı sahəsində həyata keçirdiyi təşəbbüslər məhz Paşayevlər ocağının işığıdır.

Akademik Arif Paşayevin bu günlərdə 90 yaşı tamam olur. Özümü çox xoşbəxt hesab edirəm ki, Paşayevlər ailəsini, Aqil və Arif qardaşlarını çox yaxından tanımışıq. Qardaşlarım Məzahir və Şamilin də Arif müəllim, həmçinin həyatdan vaxtsız köçmüş Aqil Paşayevlə çox mehriban münasibətləri vardı. Buzovnadakı bağda çox gözəl günlərimiz olub…

***Mən bu gün həyatının 90 illik zirvəsini fəth edən Arif müəllimi ürəkdən təbrik edirəm, ona möhkəm cansağlığı, həyat və fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayıram. 90 yaş uzunömürlülük yaşı sayılır. Arif müəllimə arzu edirəm ki, ömrü daha da uzun olsun, öz zəngin həyat təcrübəsi, fəaliyyəti və ziyalı nuru ilə elmimizi, millətimizi, bütövlükdə cəmiyyətimizi daha da işıqlandırsın.***

**Akademik**
**Ziyad SƏMƏDZADƏ**

# "ƏDƏBİ DÜŞÜNCƏLƏR" HAQQINDA DÜŞÜNCƏLƏR

***İllər keçir, ötən günləri xatırlamaq üçün köhnəlmiş qəzetləri vərəqləməli olursan. Qələmindən çıxan bəzi yazıları nəzərdən keçirdikcə, düşünürsən ki, sanki bu gün, bu saat yazılıb. Elə bu yazı kimi... 2004-cü ildə (17 fevral) yazılmış bu yazı hələ də əhəmiyyətini itirməyib. Məqaləni olduğu kimi diqqətinizə çatdırırıq.***

Nəriman Həsənzadəni oxuculara təqdim etməyə ehtiyac yoxdur. Nəriman şairdir, Nəriman dramaturqdur. Nəriman nasirdir və nəhayət, Nəriman alimdir. Bütün bu nəcibliklər ancaq yaxşı insanda, yəni Allahın sevdiyi insanda ola bilər. Nəriman başdan-ayağa yaxşılıqdan yoğrulmuş insandır.

Allah-Təala Nərimanı həyata gətirib ki, yaxşılığın ən böyük istedad olduğunu sübut etsin. Biz Nəriman Həsənzadəni nə vaxtdan tanıdığımızın tarixini də bilmirik. Ancaq onu bilmişik ki, Azərbaycanda belə işıqlı, nurlu sifəti, mehriban gözləri olan bir insan var. Oğuz dədənin sevgisi işıqdan yarandığı kimi, Nərimanın da hər əsəri bir nur çələngidir.

Belə əsərlərdən biri **"Mir Cəlalın "şah əsəri" və "baş qəhrəmanı"** adlanan ədəbi düşüncələrdir. Əsər sənədli povest təsiri bağışlayır və yüksək bədii-publisist bir dillə yazılmışdır. Bədii publisistikadan dərs deyən müəllim, bədii publisistikanın nə olduğunu bilmək istəyənlər bu ədəbi düşüncələri oxumalıdırlar.

Bəzən "böyük məhəbbət" istilahını işlədirlər, bu, düz deyil. Məhəbbətin böyüyü, kiçiyi, ortababı olmur, əsl məhəbbət olur. Nəriman Həsənzadənin "Mir Cəlalın "şah əsəri" və "baş qəhrəmanı" əsəri də böyük məhəbbətin əks-sədasıdır. Bu məhəbbət nəhəng Mir Cəlaldan başlayır, onun "şah əsəri" və "baş qəhrəmanı" olan akademik Arif Paşayevlə nəğmələnir.

Sadə dildə desək, Arif Paşayevin yetmiş yaşı tamam olur və Nərimanı da ədəbi düşüncələr dünyasında üzdürən bu görkəmli şəxsiyyətə olan dərin məhəbbətdir.

***Arif Paşayev ilk növbədə Mir Cəlalın oğludur. Ədəbi düşüncədəki "şah əsər" və "baş qəhrəman" Mir Cəlaldan əziz yadigardır.***

Ədəbi düşüncələrdə yazıçı Mir Cəlala məxsusi yer verilmişdir. Mir Cəlal Paşayev nəinki Azərbaycan nəslində, nəinki pedaqogika sahəsində, Azərbaycan mənəviyyatı sahəsində də tanınmış, ən yüksək hörmət zirvəsinə ucalmış bir ziyalı olub. Elə bir ziyalı ki, onun hər bir sözü Quran ayəsi kimi müqəddəs tutulub.

El içində ***"Allahsız yerdə otur, böyüksüz yerdə oturma"***, - deyilir. Nəriman Həsənzadə universitet müəllimi Mir Cəlalı bütün böyüklüyü ilə təsvir edir. Müəllif doğma hisslə yazır ki, o dövrdə müəllim ləyaqəti çox yüksək tutulub. Mir Cəlal, Məmməd Cəfər Cəfərov, Hadi Mirzəzadə kimi müəllimlər müqəddəs şəxsiyyətlər sayılıblar. Jurnalistika kafedrasında Həsən Şahgəldiyev və Nəsir İmanquliyev kimi alim ziyalılar olublar. O vaxt universitet diplomu almış nəsil bu gün müstəqil Azərbaycanın ağsaqqal alimləri, qabaqcıl peşə sahibləri sayılır, öz müəllimlərinin yolunu ləyaqətlə davam etdirirlər.

Buna baxmayaraq, Mir Cəlal kimi müqtədir ziyalıların yeri görünməkdədir. "Mir Cəlalın "şah əsəri" və "baş qəhrəmanı" ədəbi düşüncələr kitabında Nəriman Həsənzadə Paşayevlər ailəsi haqqında böyük hörmət-izzətlə, ehtiramla söhbət açmışdır. Kitabda hətta bu məhşur ailənin nəsil şəcərəsi də verilmişdir. Türk əxlaqında deyilir ki, yaxşı övlad yeddi arxadan dönənini tanımalıdır. Mir Cəlalın nəsil şəcərəsində isə səkkiz arxadan dönəninin adları yazılmışdır. Mir Cəlal hesabla altıncı nəsildəndir. Onun üç oğlu (Arif, Hafiz, Aqil), iki qızı (Elmira, Ədibə), on nəvəsi, hələlik on üç nəticəsi vardır. Nəriman Həsənzadə haqlı olaraq övladları obrazlı şəkildə böyük Mir Cəlalın "şah əsəri" adlandırmışdır. Həmin "şah əsər"dən biri bu günlərdə 70 yaşı tamam olan akademik Arif Mir Cəlal oğlu Paşayevdir.

Nəriman Həsənzadə hazırda Milli Aviasiya Akademiyasının prezidenti olan Arif Paşayevlə bağlı maraqlı və ibrətamiz əhvalatlar yazmışdır. Məsələn, Nəriman müəllimin kitabında belə bir cümlə var: ***"Mən hazırda Arif Paşayevin evində yaşayıram"***. Bizimlə söhbətində müəllif bir daha bu sözləri təsdiq etdi:

- Mən qırx ildən çoxdur ki, bu sözləri sonsuz minnətdarlıq hissi ilə deyirəm. Altmış üçüncü ildə təzə yazıçılar evi paylananda ev-eşiksiz gənc yazıçılarla bərabər, ailəsi böyük olan yaşlı yazıçılara da ev verirdilər. Belə oldu ki, mənim adım ev siyahısından düşdü. Əlacım kəsilib, dərdimi xətrini bir ata qədər istədiyim elmi rəhbərim Mir Cəlal müəllimə dedim. Mir Cəlal müəllim məni qolumdan tutub birbaşa ittifaq sədri Mehdi Hüseynin kabinetinə apardı və ərklə ev siyahısını istədi. Mehdi müəllim sakitcə stolun üstündəki siyahını Mir Cəlal müəllimə verdi. Mir Cəlal müəllim qələmlə kiminsə adını cızıqlayıb əvəzinə mənim adımı yazdı. Sonradan bildim ki, o özünə düşən evi mənim adıma yazmışdır.

***Kitabda Mir Cəlal və Arif Paşazadə haqqında belə ibrətamiz faktlar çoxdur. Nəriman Həsənzadənin kitabından öyrənirik ki, Arif Paşayev 1957-ci ildə Odessa Elektrotexnika Rabitə İnstitutunu bitirib, radiofizik ixtisasına yiyələnmişdir. Hazırda fizika-riyaziyyat elmləri doktorudur. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvüdür.***

Akademik Arif Paşayevlə şair Nəriman Həsənzadə arasında yaranmış uzunömürlü dostluq ədəbi düşüncələrdə öz məhəbbət dolu əksini tapmışdır.

Məsələn, dostumuz Nəriman yazır: ***"Mən Sizə böyük alim, böyük fizik deyəndə də Sizdən eşitdiklərimə, gördüklərimə əsaslanıram. İnsanların tale yaxınlığı bu mərhələdən keçir. Sizin rəhbərlik etdiyiniz Milli Aviasiya Akademiyası bu mənada təkcə ərazi deyil, talelərin qovuşduğu kainatın qucağıdır, çünki Mir Cəlal müəllimin ruhu Sizi burada hifz edir".*** Milli Aviasiya Akademiyası ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılmışdır. Arif Paşayev bu əziz töhfəni göz bəbəyi kimi qorumuş, nəcib arzular səviyyəsinə ucaltmışdır.

***Kitabda akademik Arif Paşayevin bütün tələbələrə doğmalıqla, bir ata qayğısı ilə yanaşdığı faktlarla göstərilmişdir.*** Məhz akademik Arif Paşayevin elmi və insani dühasının sayəsindədir ki, Azərbaycanın hava məkanında ən müasir "Boinq"lər məharətlə idarə olunur.

Nəriman Həsənzadə yüksək obrazlılıqla yazır ki, ailəsini "şah əsər" adlandıran Mir Cəlal kimi, həmin şah əsərin baş qəhrəmanı olan akademik Arif Paşayev də son dərəcə ailəcanlıdır. Arif də, Hafiz də, Aqil də, Elmira da, Ədibə də böyük Mir Cəlalı "şah ata" sayıblar. Kiçik Mir Cəlal isə Aqilin ailəsində boy atmaqdadır. Yəqin ki, o da gələcəkdə şah atalardan birinə çevriləcəkdir.

Əsərdə Arif Paşayevin həyat yoldaşı, həyatdan erkən köçmüş, görkəmli alim Aida haqqında da ehtiramla söz açılır. Aida xanımın ərəb dilindən etdiyi tərcümə nümunələrinin və elmi məqalələrinin bir çoxunu Nəriman Həsənzadə "Ədəbiyyat və incəsənət" qəzetinin redaktoru olarkən dərc etmişdir. Arif evin, ailənin qalası olubsa, Aida İmanquliyeva ailənin ürəyi, nəfəsi, şəfəqi, gözəlliyi və zərifliyi olub. Nəriman yazır ki, Arifin anası Püstə xanım həmişə ah çəkib deyərdi ki, Arif tək qaldı. Bəli, Paşayevlər ailəsinin Aida xiffəti çox ağır olub. Bu xiffəti Nərgiz və Mehribanın xoşbəxt taleləri unutdurub. Nərgizin ilk qızının adı Aidadır. Mehribanın xanım-ana olduğu ailədə isə Leyla və Arzu kimi gözəllərdən sonra ümummilli liderimizin adını yaşadan kiçik Heydər dünyaya gəlmişdir.

Bir sözlə, Paşayevlər şəcərəsində nəciblik estafeti davam edir. Bu müqəddəs şəcərə bu gün müstəqil Azərbaycanın Prezidenti olan İlham Heydər oğlu Əliyevin şəxsində bir ləyaqətli oğul da qazanmışdır. Mehriban Arif qızı isə ölkəmizin birinci xanımına çevrilmişdir.

Nəriman Həsənzadə böyük Mir Cəlalı "yerdə Tanrı sədası" adlandırır. Adətən, sədanın əks-sədası gəlir. Amma bu gün Mir Cəlal yadigarlarının hər biri Tanrı sədasıdır, bütün tanıyıb-eşidənlərin ürəyində ləyaqət, nəcabət və ilahilik hissləri oyadan müqəddəs səda!

***akademik Ziyad Səmədzadə,***

***Ə.Əfqan, Əməkdar incəsənət xadimi***

# COP29-un Bakıda keçirilməsi ətraf mühitin mühafizəsi işinə töhfənin göstəricisidir



"COP29-un Azərbaycanda keçirilməsi ətraf mühitin mühafizəsi, müxtəlif səviyyələrdə iqlim dəyişikliyinin qarşısının alınması işinə töhfənin göstəricisidir".
Bu barədə Trend-ə özəl müsahibəsində "PwC Azerbaijan" şirkətinin baş hüquq meneceri Leyla Sadıxova deyib.
O, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin Konfransının (COP) iqlim sahəsində ümumi strategiyanın hazırlanmasına həsr olunmuş hökumət səviyyəsində illik irimiqyaslı görüşlər olduğunu xatırladıb.
"Başqa sözlə, COP bu gün ölkələr arasında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının müddəalarının, Kiot protokolunun və Paris sazişinin reallaşdırılması üçün danışıqlar prosesinin ali orqanıdır.
BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası 21 mart 1994-cü il tarixində insanın Yerin iqlim sisteminə təhlükəli təsirinin qarşısını almaq məqsədilə qüvvəyə minib. Bu gün bu universal beynəlxalq sənəd 198 ölkə tərəfindən ratifikasiya olunub.
Konvensiyaya əlavə sənəd olan Kiot protokolu Yerin atmosferinə istixana qazlarının tullantılarını azaltmaq məqsədilə qlobal istiləşmə ilə mübarizə üçün bağlanılıb. Protokol 11 dekabr 1997-ci ildə qəbul edilib və 16 fevral 2005-ci ildə qüvvəyə minib. Azərbaycan protokola 2000-ci ildə qoşulub", - deyə L.Sadıxova bildirib.
Onun sözlərinə görə, 2015-ci ildə qəbul edilən Paris sazişi də konvensiyanın davamıdır.
Sadıxovanın sözlərinə görə, COP-un məqsədi dünyanı iqlim böhranından çıxarmaqdır.

# AMB bankların valyuta tələbinin artmasının səbəbini açıqladı



Azərbaycan Mərkəzi Bankı (AMB) fevralın 13-də keçirilmiş valyuta hərracında bankların tələbinin rekord həddə - 151,1 milyon ABŞ dollarına çatmasına münasibət bildirib.
Qurumdan qeyd edilib ki, tələbin artması mövsümi xarakter daşıyır.
*"Bu, əsasən bir sıra dövlət layihələrinin icrası və özəl sektorun idxal tələbi (o cümlədən, ərzaq və kənd təsərrüfatı məhsulları) ilə bağlıdır. 2024-cü ilin ötən dövründə valyuta hərraclarının 55%-ində təklif tələbi üstələyib. Valyuta bazarı profisitli tədiyə balansı şəraitində fəaliyyət göstərir. Bu meyillərin davam etməsi halında 2024-cü ilin sonuna da cari əməliyyatlar hesabının profisitli olacağı gözlənilir"*, - açıqlamada qeyd olunub.

# Azərbaycan Gürcüstana ən çox bitum tədarük edən 3 ölkədən biri olub




Azərbaycan 2024-cü ilin yanvar ayında Gürcüstana ən çox bitum tədarük edən 3 ölkədən biri olub.
Bu barədə Gürcüstan Neft Məhsulları İdxalçıları İttifaqından bildirilib.
*"Gürcüstan 2024-cü ilin yanvar ayında 4,7 min ton bitum idxal edib ki, bu da 2023-cü ilin yanvar ayı ilə müqayisədə 51 faiz azdır. Bu həcmin yarıdan çoxunu Rusiya, 46 faizdən çoxunu İraq, yerdə qalan həcmi isə Azərbaycan tədarük edib"*, - deyə İttifaqdan bildiriblər.
Qeyd edək ki, bitum əsasən tikinti sektorunda istifadə olunur.
Azərbaycan ənənəvi olaraq Gürcüstana ən çox karbohidrogen və neft məhsulları tədarük edən ölkələr siyahısına daxildir.

# Sistem əhəmiyyətli sığorta şirkətləri müəyyən ediləcək



Azərbaycanda sistem əhəmiyyətli sığorta şirkətlərinin qiymətləndirilməsi üçün meyarlar təsdiq edilib.
Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov "Sığortaçının sistem əhəmiyyətli sığortaçı kimi qiymətləndirilməsi Meyarları"nın təsdiq edilməsi barədə qərar imzalayıb.
Qərara əsasən, cəmi aktivlərinin çəkisi 20%, sığorta yığımları 10%, sığorta müqavilələrinin sayı 10%, sığortaçının maliyyə təşkilatları qarşısındakı öhdəlikləri, maliyyə təşkilatlarında yerləşdirdiyi aktivləri və təkrarsığorta haqları 6,67% olan, xüsusi sığorta növləri üzrə sığorta (təkrarsığorta) haqları 30%, Sığorta (təkrarsığorta) portfelinin çeşidliliyi 10% olan sığortaçılar sistem əhəmiyyətli sığorta şirkətləri hesab ediləcək.
Sığortaçının sistem əhəmiyyətliliyi hər il üçün son 3 ilin illik hesabatlarına əsasən qiymətləndirilir. Əgər sığortaçı 3 ildən az müddətdə fəaliyyət göstərirsə, bu zaman fəaliyyətdə olduğu illər üzrə illik hesabatlar əsas götürülür. Sistem əhəmiyyətli sığortaçıların siyahısı isə hər il 1 mart tarixinədək Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə təsdiq ediləcək.

# "AzerGold" QSC ekoloji sahədə "2023-cü ilin ən yaxşı tərəfdaşı" nominasiyası üzrə təltif edilib




"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən (ETSN) "Korporativ sosial məsuliyyət çərçivəsində ətraf mühit layihələrinə dəstək olan ən yaxşı tərəfdaş" nominasiyası üzrə təltif edilib.
Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev tərəfindən təqdim edilən nominasiyanı Səhmdar Cəmiyyətin adından İdarə Heyəti sədrinin müavini, Korporativ Sosial Məsuliyyət Komitəsinin sədri Xəyyam Fərzəliyev qəbul edib.
Tədbirdə, həmçinin ətraf mühitin sağlamlaşdırılması, biomüxtəliflik və ekosistemin bərpasına önəm verən, bu istiqamətdə layihələr həyata keçirən, ekoloji maarifləndirmə sahəsində təşəbbüskarlıq göstərən digər sahibkarlıq subyektləri və qeyri-hökumət təşkilatları təltif edilib.

# Ötən il 7 min hektara yaxın ərazidə meşəbərpa işləri aparılıb



Ötən il Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti 6850 hektar meşə fondu sahələrində meşəbərpa tədbirləri həyata keçirib.
Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib.
Bildirilib ki, bu, əvvəlki illə müqayisədə 19,6 faiz azdır.
Məlumata görə, həmçinin 622,1 hektar sahədə meşə əkinləri, 415,9 hektar sahədə isə meşə səpinləri işləri aparılıb. 4 hektar sahədə meşə bağları, 8 hektar sahədə tez böyüyən ağac cinslərindən ibarət sənaye əhəmiyyətli plantasiyalar salınıb və 5800 hektar sahədə təbii bərpaya kömək işləri görülüb.
Ümumilikdə, xidmət göstərilmiş meşə əkinlərinin, səpinlərinin və meşə bağlarının sahəsi 18296,5 hektar təşkil edib.

# Polşa və Slovakiyadan quşçuluq məhsullarının idxalına məhdudiyyət qoyulub




Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının rəsmi məlumatlarına əsasən, Polşa Respublikasının Velikopolsk inzibati ərazisində və Slovakiya Respublikasının Bratislava diyarında yüksək patogen quş qripi xəstəliyi qeydə alınıb.
Bu barədə Qida Təhlükəsizliyi Agentliyinin İnformasiya təminatı və innovativ həllər şöbəsindən Trend-ə verilən məlumatda deyilir.
Respublika ərazisinin həmin yoluxucu xəstəlikdən qorunması üçün Velikopolsk inzibati ərazisində və Bratislava diyarında zonalaşma prinsipi nəzərə alınmaqla, xəstəlik baş vermiş təsərrüfatın 10 kilometr radiusda olan məsafədə yerləşən müəssisələrdən diri quş və inkubasiya yumurtalarının, quş ətinin, tərkibində quş emalı məhsulları olan quş ətindən və bütün növ quşçuluq məhsulundan alınan hazır ət məhsullarının (quş qripi viruslarının məhv edilməsini təmin edən termik emala məruz qalan mallar istisna olmaqla), quş yemləri və quş üçün yem əlavələrinin (bitki mənşəli, kimyəvi və mikrobioloji sintez yolu ilə alınmış yemlər və yem əlavələri istisna olmaqla), quşların saxlanması, kəsilməsi və emalı üçün istifadə olunmuş avadanlıqların idxalına WOAH-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunub.

# Bankların investisiya xidməti göstərməsi qaydası təsdiq edildi




Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyəti "İnvestisiya şirkətləri tərəfindən investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi Qaydası"nda dəyişiklik edib.
Bununla bağlı AMB-nin sədri Taleh Kazımov yeni qərar imzalayıb.
Qərara əsasən, bundan sonra həmin qayda banklara da aid ediləcək, "İnvestisiya şirkətləri və banklar tərəfindən investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi Qaydası" adlanacaq.
Banklar investisiya xidmətlərini bu məqsədlə yaradılmış bölmə vasitəsilə həyata keçirilməli, bu xidmətləri göstərən bank əməkdaşları ixtisas şəhadətnaməsinə, rəhbər şəxs isə investisiya xidmətləri sahəsində minimum 2 illik iş təcrübəsinə malik olmalı, kredit təşkilatları isə müştərilərə investisiya xidmətlərinin göstərilməsi üçün müvafiq strategiyaya, risklərin idarəedilməsi qaydasına və rəqəmsal texnologiyalara malik olmalıdır.
Anderrayter qiymətli kağızlar yerləşdirərkən mövcud və yaxud mümkün risklər barədə təhlil aparılmalı və investorlara yazılı məlumat verilməlidir.

# В Милли Меджлисе состоялась церемония инаугурации Президента Азербайджанской Республики

14 февраля в Милли Меджлисе состоялась церемония инаугурации Президента Азербайджанской Республики Ильхама Алиева.
Участники церемонии тепло встретили Президента Азербайджанской Республики Ильхама Алиева. Церемония инаугурации Ильхама Гейдар оглу Алиева, избранного Президентом Азербайджанской Республики всенародным голосованием, была объявлена открытой.
Председатель Конституционного суда Азербайджанской Республики Фархад Абдуллаев сказал:
- Как известно, Конституционный суд Азербайджанской Республики, утвердив своим постановлением от 13 февраля 2024 года выводы Центральной избирательной комиссии об итогах внеочередных выборов Президента Азербайджанской Республики, объявил Ильхама Гейдар оглу Алиева Президентом Азербайджанской Республики. Ильхам Гейдар оглу Алиев, избранный Президентом Азербайджанской Республики, в соответствии со статьей 103 Конституции Азербайджанской Республики приглашается к принесению присяги в присутствии судей Конституционного суда.
Президент Азербайджанской Республики Ильхам Алиев, положив руку на Конституцию Азербайджанской Республики, принес присягу:
- Осуществляя полномочия Президента Азербайджанской Республики, клянусь соблюдать Конституцию Азербайджанской Республики, защищать независимость и территориальную целостность государства, достойно служить народу!
Затем Президент принес присягу, положив руку на священный Коран:
-Положа руку на священный Коран, клянусь быть приверженным национально-духовным ценностям и традициям, созданным азербайджанским народом на протяжении веков, постоянно дорожить ими.
Президент Азербайджанской Республики Ильхам Алиев выступил на церемонии инаугурации с речью.

# Среднегодовая инфляция в Азербайджане замедлилась

Индекс потребительских цен в Азербайджане в январе 2024 года вырос на 1,7 процента по сравнению с аналогичным периодом прошлого года.
Отметим, что на конец декабря индекс потребительских цен составлял 2,1 процента.
Согласно данным Госкомстата Азербайджана, цены на продукты питания, напитки и табачные изделия выросли за год на 0,7 процента. Непродовольственные товары подорожали на 1,7 процента, а платные услуги населению - на 3,2 процента.
В январе 2024 года индекс потребительских цен в Азербайджане вырос на 0,5 процента по сравнению с предыдущим месяцем.

# Утвержден порядок предоставления банками инвестиционных услуг



Правление Центрального банка Азербайджана (ЦБА) внесло изменения в «Порядок осуществления инвестиционных услуг (операций) инвестиционными компаниями».
Соответствующее решение подписал председатель ЦБА Талех Кязымов.
Постановлением документ переименован в «Порядок осуществления инвестиционных услуг (операций) банками и инвестиционными компаниями».
Отныне банки обязаны предоставлять инвестиционные услуги через специализированные подразделения. Сотрудники банка, занимающиеся предоставлением инвестиционных услуг, должны иметь соответствующее квалификационное удостоверение, а руководящий персонал должен обладать опытом работы в сфере инвестиционных услуг не менее двух лет.
В то же время кредитные организации обязаны разработать стратегию предоставления инвестиционных услуг клиентам, установить процедуры управления рисками и обеспечить доступ к цифровым технологиям.

*В мире*

# Инициатором обострения ситуации на азербайджано-армянской границе является разведка Франции

Об этом написал директор Института политических исследований Сергей Марков в своем телеграмм-канале.
"Новое обострение и обмен ударами между армиями Армении и Азербайджана. Почему? Ведь обе стороны хотят подписать мирный договор?
Армия Армении нанесла удары из того района, где есть миссия ЕС. Возможно, инициатором обмена ударов выступает разведка Франции.
Ведь Макрон хочет стать главным военным союзником Армении, чтобы вытолкнуть с этой позиции Россию. Франция и ЕС, и НАТО поэтому главные бенефициары военных действий между Арменией и Азербайджаном", - говорится в публикации.
Отметим, что 12 февраля в 20:50 и в 23:40 подразделения Вооруженных сил Армении с позиций в направлении населенного пункта Чинарлы Товузгалинского района подвергли обстрелу из стрелкового оружия позиции армии Азербайджана в направлении населенного пункта Коханаби Товузского района.
13 февраля подразделениями Государственной пограничной службы (ГПС) Азербайджана в ответ на вчерашнюю провокацию Вооруженных сил Армении была проведена операция "Возмездие".
Согласно информации ГПС, в результате операции был полностью разрушен боевой пост Вооруженных сил Армении возле населенного пункта Неркин-Анд Гафанского района, откуда вчера был открыт огонь по позициям армии Азербайджана.

# Валерий Бельский: Наблюдатели поражены высоким уровнем организации выборов в Азербайджане



Международные наблюдатели были поражены высоким уровнем организации президентских выборов в Азербайджане. Как передает Report, об этом международный наблюдатель, зампредседателя Совета Республики парламента Беларуси Валерий Бельский сообщил на пресс-конференции по итогам мониторинга выборов в Азербайджане.
Парламентарий отметил, что уверенная победа президента Ильхама Алиева на внеочередных выборах свидетельствует о высоком уровне доверия населения политическому курсу руководства страны.
Бельский также поздравил Азербайджан с избранием хозяином престижного мероприятия COP29 в этом году.

# Минэкономики Азербайджана о темпах роста в ряде сфер




ВВП Азербайджана в январе 2024 года по сравнению с аналогичным периодом прошлого года вырос на пять процентов, а ненефтегазовый ВВП — на 12,3 процента.
Согласно данным министерства экономики Азербайджана, рост добавленной стоимости в строительном секторе составил 66,9 процента, в сфере транспорта и складского хозяйства — 26,8 процента, ненефтегазовой обрабатывающей промышленности — 16,8 процента, туризме и общественном питании — 12,1 процента, в сфере информации и связи — 11,8 процента.
В экономике страны зафиксирована высокая инвестиционная активность, отмечает ведомство.
«В январе 2024 года инвестиции в основной капитал выросли на 37,4 процента по сравнению с аналогичным периодом прошлого года. В ненефтегазовом секторе рост составил 34,1 процента, что является значимым фактором, способствующим экономическому росту», - говорится в информации министерства.
Отметим, что ВВП Азербайджана в январе 2024 года составил 9,131 миллиарда манатов.
Напомним, что ВВП Азербайджана в 2023 году вырос на 1,1 процента по сравнению с 2022 годом - до 123 миллиардов манатов.

# Назван объем производства газа в Азербайджане



Азербайджан в январе 2024 года увеличил добычу газа на 30 миллионов кубометров газа.
Об этом на своей странице в соцсети X написал министр энергетики Азербайджана Парвиз Шахбазов.
«За этот период на экспорт было отправлено 2,3 миллиарда кубометров из 4,3 миллиарда кубометров газа», - написал он.
Кроме того, министр подчеркнул, что производство нефти за январь составило 2,5 миллиона тонн, из которых 2,1 миллиона тонн было направлено на экспорт.
Отметим, что Азербайджан обладает значительными запасами газа на шельфе. По оценкам, разведанные запасы гигантского месторождения «Шах Дениз» составляют 1,2 триллиона кубометров газа и 240 миллионов тонн конденсата.

# Вырос поток туристов из стран Центральной Азии



В январе 2024 года Азербайджан посетили 11 510 туристов из стран Центральной Азии, что в 2,16 раза превышает показатель аналогичного периода 2023 года (5 309 человек).
Согласно данным Госагентства Азербайджана по туризму, число туристов из Казахстана составило 4 795 (рост за год в 2,28 раза), Узбекистана - 3 399 (рост за год в 2,38 раза), Туркменистана - 2 452 (рост за год на 66,12 процента), Кыргызстана - 481 (рост за год в 3,41 раза), Таджикистана - 383 человека (рост за год в 2,32 раза). Отметим, что в отчетный период Азербайджан в целом посетили 165 868 туристов (рост на 39,27 процента).

# İlham Əliyev düşünülmüş islahatları və cəsarətli addımları ilə Azərbaycan xalqınının həyatına yeni ruh gətirib



***Suveren Azərbaycan dövlətinin öz siyasi dəst-xətti, dövlətçilik siması, inkişaf yolu vardır. Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri heç bir tarixi şəxsiyyətlə müqayisə edilməyəcək dərəcədə böyükdür, çoxşaxəlidir və qiymətlidir.*** Heydər Əliyev təkcə bir tarixi şəxsiyyət, yaxud böyük dövlət xadimi deyil, eyni zamanda müstəqil Azərbaycan dövlətinin banisi və qurucusudur. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının müstəqil dövlətçilik rəmzi və milli iftixarıdır. Siyasi olimpin zirvəsinə doğru inkişafda Heydər Əliyev adidən aliyə doğru bütün pillələri addım-addım keçmiş, zəngin həyat təcrübəsi əldə etmiş və mükəmməl dövlət idarəçiliyi formalaşdırmışdır. Ölkəmizdə milli tərəqqinin 35 ildən artıq bir mərhələsi milli mənafeyi hər şeydən uca tutan, zəmanəmizin böyük siyasi və dövlət xadimi, milli dövlət quruculuğumuzun memarı Heydər Əliyevin millət və vətən sevgisindən qaynaqlanan fəaliyyəti ilə bağlıdır. Məhz Heydər Əliyevin siyasi dühası, iradəsi, enerjisi, ağlı, təcrübəsi, xarizması kimi mühüm dövlət xadimi keyfiyyətləri, yorulmaz fəaliyyəti, xalqına və Vətəninə sevgisi sayəsində müstəqil Azərbaycan dövləti quruldu, möhkəmləndi və əbədiyaşarlıq qazandı. Ulu öndər öz siyasi kursunun layiqli davamçısı olan İlham Əliyev kimi bir şəxsiyyət formalaşdırdı. O, təkcə güclü dövlət yaratmaq deyil, bununla yanaşı, özündən sonra çoxşaxəli islahatların varisliyini uğurla təmin edə biləcək peşəkar lider də yetişdirdi. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" deyən ulu öndər xalqımıza özünün layiqli davamçısını təqdim etdi. Cənab İlham Əliyev 20 illik prezidentlik fəaliyyəti ilə belə bir fikrin qəti qənaət olduğunu sübut etdi. Prezident İlham Əliyev düşünülmüş islahatları, müdrik qərarları və cəsarətli addımları ilə Azərbaycan xalqınının həyatına yeni ruh və nəfəs gətirib. Bu gün Azərbaycan dünyanın inkişaf edən ölkələri sırasındadır. Onun siyasətinin mərkəzində insan amili dayanır, amalı qurub-yaratmaq, xalqını daha xoş günə, daha firavan həyata qovuşdurmaqdır. Onun vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətinin 2003-2023-cü illərinə nəzər saldıqda fəaliyyətinin möhtəşəmliyinin bir daha şahidi oluruq. Tariximizə əvəzsiz 20 il kimi yazılan ötən dövrdə Azərbaycan Respublikası misilsiz inkişaf yolu keçmişdir. Bütün sadalanan müsbət keyfiyyətlərinə görə xalqımız 2008, 2013 və 2018-ci illərdə keçirilən prezident seçkilərində də cənab İlham Əliyevi öz müstəqil dövlətinə yenidən rəhbər seçdi.

2003-cü il 24 noyabr tarixli fərmanla "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" strategiya sosial-iqtisadi inkişafın real dinamikasını təmin etmişdir.

***2004-cü ildə Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı üzrə proqram qəbul edilmiş, bu proqramlar çərçivəsində 100 mlrd. manatdan çox investisiya qoyulmuşdur.***

2006-cı il iyulun 13-də Heydər Əliyevin adını daşıyan nəhəng Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin açılışı oldu və həmin il dekabrın 15-də "Şahdəniz" yatağında ilk quyu istismara verildi. Davamlı olaraq "Ümid", "Babək" və "Abşeron" yataqlarının kəşfi Azərbaycanın böyük qaz ehtiyatlarına sahib olduğunu təsdiq etdi. 2014-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 20-ci ildönümündə Səngəçalda "Cənub Qaz Dəhlizi" layihəsinin təməli qoyuldu, gərgin fəaliyyəti və ardıcıl səyləri ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərindən sonra Bakı-Tbilisi-Ərzurum, TANAP, TAP kimi transmilli qaz arteriyaları yarandı. Bununla da dünyanın enerji xəritəsində yeni səhifə formalaşmış oldu.

2017-ci il sentyabrın 14-də Prezident İlham Əliyevin şəxsi səyləri nəticəsində Xəzər dənizinin Azərbaycan sektorunda nəhəng Azəri-Çıraq-Günəşli neft yataqları blokunun 2050-ci ilə qədər işlənilməsində yeni dövr başlandı.

2020-ci il dekabrın 31-də Cənub Qaz Dəhlizinin son seqmenti olan Trans-Adriatik boru kəmərinin istismara verilməsi ilə Azərbaycan qazının tarixdə ilk dəfə olaraq Avropaya ixracına start verildi. Son 20 ildə iqtisadi artım dinamikasına dair rəqəmlər bunu sübut edir. Belə ki, "güclü iqtisadiyyat ən önəmli şərtdir" deyən Prezident İlham Əliyevin hakimiyyəti illərində Azərbaycanın ümumi daxili məhsulu real ifadədə 3,6 dəfə artmışdır. Bu, son iki onillikdə qlobal miqyasda əldə olunan ən yaxşı iqtisadi nailiyyətlərdən biridir. Milli iqtisadiyyat qarşısında qoyulmuş çağırışlara cavab olaraq ötən 20 il müddətində qeyri-neft sektoru üzrə ÜDM 3,4 dəfə, dövlət büdcəsinin xərcləri 30 dəfə artmışdır.

***Əgər 2003-cü ildə adambaşına düşən büdcə xərcləri 150 manatdan az idisə, hazırda bu rəqəm 3500 manatdan çoxdur. Xarici ticarət dövriyyəsi 10,8 dəfə, o cümlədən ixrac 16,1 dəfə artmışdır. 2003-cü illə müqayisədə 2022-ci ildə adambaşına düşən ÜDM 3 dəfəyə yaxın artaraq, 13 256 manat təşkil etmişdir.*** Aparılan çoxşaxəli iqtisadi siyasət nəticəsində davamlı iqtisadi inkişaf təmin olunmuşdur. Birbaşa xarici borcun həcmi azalaraq hazırda ümumi daxili məhsulun 9,3 faizini təşkil edir. Azərbaycanın xarici valyuta ehtiyatları son 20 ildə 47 dəfədən çox artaraq 66 mlrd. ABŞ dollarını keçmişdir və hazırda birbaşa xarici borcumuzu 10 dəfə üstələyir. Bu dövr ərzində sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çoxdur və onlardan 190 milyard dolları qeyri-enerji sektoruna yatırılmışdır. Statistik rəqəmlərə nəzərən son 20 ildə respublika üzrə ümumi gücü 4 min MVt olan 71 yeni elektrik stansiyası istismara verilmiş, hal-hazırda ölkədə ümumi gücü 8 min MVt olan 93 elektrik stansiyası fəaliyyət göstərir. 2003-cü ildən Azərbaycanda 20 min kilometrə yaxın avtomobil yolu, 1400 kilometr dəmir yolu tikilib və ya əsaslı təmir edilmişdir. Son 20 ildə paytaxtda və regionlarda 3630 məktəb, 760-dək səhiyyə müəssisəsi tikilmiş və ya əsaslı təmir olunmuşdur.

2003-2023-cü illərdə sosial təyinatlı büdcə xərcləri 20 dəfədən çox,

orta aylıq nominal əməkhaqqı 12 dəfə, minimum əməkhaqqı isə 38 dəfədən çox artmışdır. Son 20 ildə orta aylıq pensiya 18 dəfəyə yaxın, minimum pensiya məbləği isə 14 dəfə yüksəlmişdir.

2012-ci ildən sırf Azərbaycan brendi olan, gündən-günə bütün ölkə üzrə öz xidmət dairəsini genişləndirən "ASAN xidmət" əhalinin rahatlığının təmin edilməsi sahəsində dövlət siyasətini müvəffəqiyyətlə gerçəkləşdirir.

Son 20 ildə dövlət büdcəsindən təhsilə ayrılan xərclər 19 dəfə artmışdır.

2019-cu ildən ölkədə geniş tətbiqinə başlanılan icbari tibbi sığorta bu gün xidmətlər zərfinə daxil olan 3300-dən artıq tibbi xidmət sayı ilə bütün ölkə əhalisini əhatə edir.

50-ə yaxın Olimpiya idman kompleksi tikilmiş, Azərbaycan idmançıları beynəlxalq yarışlarda, olimpiya oyunlarında uğurlara imza atmış, ölkəmiz Avropa və dünya səviyyəli yarışların keçirildiyi məkana çevrilmişdir.

Azərbaycan bu gün dünyanın məhdud saylı kosmik ölkələri sırasında yer alır. "Azerspace-1", "Azersky" və "Azerspace-2" peykləri uğurla fəaliyyət göstərir.

Onun möhtəşəm prezidentlik dövrünün zirvəsində təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm zəfər və 1 günlük lokal antiterror tədbirlərinin uğurlu nəticəsi 30 ildən artıq müddətdə Ermənistanın işğal altında saxladığı ərazilərimizin qapılarını Böyük Qayıdışa açmışdır.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin ən mühüm istiqaməti işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin aparılması, müasir sosial-mədəni infrastrukturun qurulması, kommunikasiya və nəqliyyat xətlərinin bərpasıdır.

Qalib xalqın Qalib Prezidenti, Müzəffər ordunun Ali Baş Komandanı, dünya azərbaycanlılarının Lideri İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan qarşısında daha geniş üfüqlər açılmışdır.

Əminliklə deyə bilərik ki, həmişə olduğu kimi, bundan sonra da uzun illər xalqımız Prezident cənab İlham Əliyevin ətrafında sıx birləşərək, böyük uğurlara imza atacaq.



***Kifayət Xudaverdiyeva,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Maliyyə və Audit kafedrasının dosenti, BMT-nin Zaqafqaziya üzrə sülhməramlı səfiri***

# Laçın və Kəlbəcərdə üç yaşayış məntəqəsinin tikintisinə başlanılır



Şərgi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın və Kəlbəcər rayonlarında 1 qəsəbənin (Qorçu) və 2 kəndin (Çaykənd, Qamışlı) yenidənqurma layihəsi üzrə müqavilələr imzalanıb.

Bu barədə Şərqi Zəngəzur iqtisadi rayonunda 2 saylı Bərpa, tikinti və idarəetmə xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, "Azərdövlətsənaye" Dövlət Layihə İnstitutu ilə Şərqi Zəngəzur iqtisadi rayonunda 2 saylı Bərpa, tikinti və idarəetmə xidməti arasında Kəlbəcər rayonunun Çaykənd və Qamışlı kəndlərinin yenidənqurulması işlərində layihələndirmə işinin hazırlanmasının satınalmasına dair müqavilələr bağlanıb.

Həmçinin, "Azərmemarlayihə" Dövlət Baş Layihə İnstitutu ilə Şərqi Zəngəzur iqtisadi rayonunda 2 saylı Bərpa, tikinti və idarəetmə xidməti arasında Laçın rayonunun Qorçu qəsəbəsinin tikintisi layihəsinin hazırlanması dair satınalma müqaviləsi bağlanılıb.

# İqtisadi Zonaların İnkişafı Agentliyi gəlirlərini və xərclərini açıqlayıb



İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) 2022-ci ildə gəlirləri 33 milyon 850 min manat, xərclər 33 milyon 816 min manat təşkil edib. Bu barədə Banker.az İqtisadi Zonaların İnkişafı Agentliyinin "Nexia EA" audit şirkəti tərəfindən verilən audit rəyinə istinad edir.

2021-ci ildə qurumun gəlirləri 32 milyon 453 min manat, xərcləri isə 32 milyon 22 min manat olub ki, bu da illik müqayisədə müvafiq olaraq 4% və 6% çoxdur. Ötən ili İqtisadi Zonaların İnkişafı Agentliyinin əsas əməliyyat gəlirləri 33 milyon 759 min manat, sair əməliyyat gəlirləri 91 min manat, işçi heyəti üzrə xərclər 4 milyon 599 min manat, amortizasiya xərcləri 10 milyon 889 min manat, digər əməliyyat xərcləri 17 milyon 908 min manat, sair əməliyyat xərcləri 417 min manat təşkil edib.

# İqtisadiyyatın bir sıra sahələrində yüksək artım templəri müşahidə olunub







Cari il Azərbaycan iqtisadiyyatında yüksək göstəricilər qeydə alınıb. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin yanvar ayında ÜDM 5 faiz, o cümlədən qeyri-neft-qaz ÜDM-i 12,3 faiz artıb.

İqtisadiyyat Nazirliyindən bildirilib ki, əlavə dəyərdə artım tikinti sektorunda 66,9 faiz, nəqliyyat və anbar təsərrüfatında 26,8 faiz, qeyri-neft-qaz emal sənayesində 16,8 faiz, turizm və ictimai iaşədə 12,1 faiz, informasiya və rabitədə 11,8 faiz təşkil edib. Ölkə iqtisadiyyatında yüksək investisiya fəallığı qeydə alınıb.

# Azərbaycan iqtisadiyyatı 5 faiz böyüyüb




Cari ilin yanvar ayında ölkədə 9131,0 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,0 faiz çox ümumi daxili məhsul istehsal olunub.

Dövlət Statistika Komitəsindən bildirilib ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,6 faiz azalıb, qeyri-neft-qaz sektorunda isə 12,3 faiz artıb.

ÜDM istehsalının 41,9 faizi sənaye, 10,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,8 faizi tikinti, 2,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,8 faizi informasiya və rabitə, 1,7 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 17,8 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 10,6 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 896,7 manata bərabər olub.

# 618 min manatdan çox vəsait istehlakçılara geri qaytarılıb

2023-cü il ərzində İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən istehlakçıların 2861 müraciəti təmin olunub. Dövlət Xidmətinin məlumatına istinadən xəbər verilir ki, ötən il təmin olunan müraciətlər üzrə 618 304 min manat vəsait sahibkarlar tərəfindən istehlakçılara geri qaytarılıb ki, bu da 2022-ci illə müqayisədə 83 faiz çoxdur.



# Mərakeşin media nümayəndələri AZPROMO-da olub

Azərbaycanda səfərdə olan Mərakeşin bir qrup nüfuzlu media orqanlarının nümayəndələri İxracın və İnvestisiyaların Təşviqi Agentliyində - AZPROMO-da olub.

AZPROMO-dan bildirilib ki, görüş zamanı qurumun icraçı direktoru Yusif Abdullayev agentliyin fəaliyyət istiqamətləri, Azərbaycanda baş verən proseslər, təşkil olunan irimiqyaslı beynəlxalq tədbirlər, ölkə iqtisadiyyatının, o cümlədən qeyri-neft sektorunun inkişafı, eləcə də biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması, ixracın genişləndirilməsi, "Made in Azerbaijan" brendinin və xarici investisiyaların təşviqi məqsədilə AZPROMO tərəfindən görülən işlər və həyata keçirilən tədbirlər barədə məlumat verib.



Azərbaycanda və Mərakeşdə biznes və investisiya mühitinin inkişafı istiqamətində həyata keçirilən tədbirlərə toxunan Yusif Abdullayev, ölkələr arasında qarşılıqlı ixrac və investisiya potensialının artırılması üçün AZPROMO-nun Mərakeşin İnvestisiya və İxracın İnkişafı Agentliyi (AMDIE), Mərakeş Müəssisələrinin Ümumi Konfederasiyası (CGEM) ilə əməkdaşlıq etdiyini vurğulayıb.

Bundan başqa, Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etdiyi və hazırda işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin sürətlə həyata keçirildiyi media nümayəndələrinin diqqətinə çatdırılıb, Azərbaycan vətəndaşlarının işğaldan azad edilmiş ərazilərə qayıdışı çərçivəsində görülən işlər, ərazilərin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiya, dayanıqlı inkişafının təmin olunması, ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və yaşayış şəraitinin yaradılması istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlər barədə məlumat verilib. Bildirilib ki, sözügedən ərazilərdə bərpa-quruculuq işlərinin həyata keçirilməsi üçün dövlət büdcəsindən 7 milyard dollardan çox vəsait ayrılıb və bu proses davam etdirilir.

# Ötən ay ölkədə 5 milyard manatdan çox sənaye məhsulu istehsal edilib



Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2024-cü ilin yanvar ayında 5,2 milyard manatlıq sənaye məhsulu istehsal edilib, neft-qaz sektorunda məhsul istehsalı 2,5 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 8,9 faiz artıb.

Dövlət Statistika Komitəsindən bildirilib ki, sənaye məhsulunun 66,6 faizi mədənçıxarma sektorunda, 27,1 faizi emal sektorunda, 5,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 8,3 faiz azalıb, əmtəəlik qaz hasilatı isə 4,2 faiz artıb.

Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 2,8 dəfə, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 2,1 dəfə, kompüter, elektron və optik məhsulların istehsalı 67,9 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 54,1 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 48,7 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 41,0 faiz, mebel istehsalı 40,5 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 35,0 faiz, tikinti materiallarının istehsalı 34,5 faiz, tütün məmulatlarının istehsalı 28,3 faiz, geyim istehsalı 27,5 faiz, elektrik avadanlıqlarının istehsalı 24,9 faiz, hazır metal məmulatlarının istehsalı 18,3 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 18,0 faiz, qida məhsullarının istehsalı 8,7 faiz, kimya sənayesi məhsullarının istehsalı 1,4 faiz, neft məhsullarının istehsalı 9,6 faiz, sair sənaye məhsullarının istehsalı 13,7 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 48,4 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda 0,2 faiz artım qeydə alınıb.

# İllik inflyasiya açıqlanıb

Cari ilin yanvar ayında istehlak qiymətləri indeksi ötən ilin eyni dövrünə nisbətən 101,7 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 100,7 faiz, qeyri-qida məhsulları üzrə 101,7 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 103,2 faiz təşkil edib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, yanvar ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,5 faiz olub. Bu ayda qida məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,1 faiz təşkil edib. Cari ilin yanvar ayında əvvəlki aya nisbətən ayrı-ayrı qida məhsullarından daha çox bahalaşma düyünün, qoyun və toyuq ətinin, təzə balığın, südün, yumurtanın, zeytun yağının, naringinin, limonun, bananın, almanın, narın, xiyarın, pomidorun, balqabağın, sarımsağın, soğanın, kartofun, yerkökünün, şəkərin, konfetlərin, meyvə şirəsinin, spirtli içkilərin, tütün məmulatlarının, ucuzlaşma isə əsasən manna və qarabaşaq yarmasının, unun, çörəyin, mal ətinin, süfrə marqarininin, günəbaxan və qarğıdalı yağlarının, portağalın, çuğundurun, şəkər tozunun qiymətlərində müşahidə olunub. Digər qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib. 2024-cü ilin yanvar ayında qeyri-qida məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,1 faiz təşkil edib. Əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,0 faiz təşkil edib.

# Prezident İlham Əliyevin rəhbərliyi ilə milli iqtisadiyyatın uğurlu inkişafı



***Əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident cənab İlham Əliyev tərəfindən qlobal iqtisadi şəraitin tələblərinə uyğun olaraq həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının əsas məqsədi müasir çağırışlar kontekstində Azərbaycanın davamlı iqtisadi inkişafını təmin etməkdir.***

Məlumdur ki, hər hansı bir inkişafın əsasını iqtisadi tərəqqi təşkil edir. Heydər Əliyev siyasətini uğurla davam etdirən cənab İlham Əliyev prezident kimi fəaliyyətə başladığı gündən etibarən dövlətin iqtisadi siyasətinin təkmilləşdirilməsi, davamlı iqtisadi islahatların dərinləşdirilməsi, qlobal iqtisadi çağırışlara adekvat və müasir konseptual yanaşmaların təmin edilməsi, milli iqtisadiyyatın səmərəli formada şaxələndirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi, milli iqtisadiyyatın davamlı artımının formalaşdırılması və bunlarla bağlı prioritet qeyri-neft sahələrinin inkişafının sürətləndirilməsi, qlobal çətinliklər şəraitində və dünyada qeyri-sabit maliyyə mühitinin hökm sürdüyü dövrdə ölkə əhalisinin sosial rifahının davamlı olaraq yaxşılaşdırılmasına nail olunması kimi mürəkkəb vəzifələrin və problemlərin həlli istiqamətində çox mühüm qərarlar qəbul etmişdir.

Ümumiyyətlə, Prezident İlham Əliyevin güclü siyasi iradəsi sayəsində Azərbaycan dünya iqtisadi proseslərində nisbətən formalaşmış və müəyyən iqtisadi inkişaf proseslərini keçmiş, dünya iqtisadi sistemində özünəməxsus xüsusiyyətləri, mexanizimləri, prinsipləri və meyarları ilə fərqlənən yeni, keyfiyyətli milli iqtisadi inkişaf modeli formalaşdırmışdır.

Həyata keçirilən davamlı iqtisadi islahatlar sayəsində Azərbaycan ötən müddət ərzində ölkənin iqtisadi müstəqilliyinin təmin olunması istiqamətində əhəmiyyətli addımlar atıb. Davamlı iqtisadi islahatlar nəticəsində bu siyasət qlobal iqtisadi çağırışlara uyğun müasir konseptual yanaşmalarla daha da təkmilləşdirilmiş, strateji məqsədlərə uyğun sərbəst bazar münasibətlərinin və özünüinkişaf qabiliyyətinə malik sosialyönümlü, şaxələndirilmiş milli iqtisadiyyatın formalaşdırması təmin edilmişdir. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkəmiz regional və beynəlxalq iqtisadi inkişaf proseslərində, qlobal iqtisadi layihələrdə, o cümlədən beynəlxalq nəqliyyat və enerji layihələrində tarixi uğurlara nail olmuşdur. Ötən dövrdə neft gəlirləri hesabına ölkənin maliyyə imkanlarının genişlənməsi fonunda aktiv şəkildə əsas kapitala kifayət qədər irihəcmli investisiyalar yönəldilmişdir. Bunun belə, məqsədyönlü siyasət sayəsində ölkəmiz sosial və iqtisadi infrastruktur quruculuğunda, özəl sektorun inkişafında, sənayeləşmədə, aqrar sektorun istehsal və ixrac imkanlarının genişləndirilməsində, makroiqtisadi sabitliyin qorunub saxlanılmasında, əhalinin sosial rifahının yaxşılaşmasında diqqətəlayiq uğurlara imza atmışdır.

**Cənubi Qafqazın əsas iqtisadiyyatını özündə formalaşdıran Azərbaycan regionda mühüm siyasi və iqtisadi əməkdaşlıq platformalarının yaradılmasının əsas təşəbbüskarı kimi çıxış edir. Azərbaycanın aktiv iştirakı ilə yerinə yetirilən enerji, infrastruktur və digər layihələr bütövlükdə regionun iqtisadi inkişafında mühüm əhəmiyyət daşıyır. Məlumdur ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyini təmin edən nüfuzlu bir ölkəyə çevrilmişdir. Azərbaycanın fəal tərəfdaş olaraq irəli sürdüyü və tam olaraq dəstək verdiyi enerji layihələri ölkəmizi regionda və Avropa İttifaqı məkanında önəmli bir amilə çevirmişdir.**

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadiyyatı inklüziv iqtisadiyyat kimi xarakterizə olunur. Ölkəmizin bütün ərazilərində təhsil, səhiyyə infrastrukturunun yüksək standartlara uyğun səviyyədə yenidən qurulması, şəhərlərdə və rayonlarda müasir tələblərə cavab verən idman mərkəzlərinin yaradılması, əhalinin sosial rifahının yaxşılaşdırılmasına yönəldilmiş tədbirlərin coğrafiyasının genişləndirilməsi Azərbaycanın sosialyönümlü iqtisadi inkişaf modelinə malik olduğunu səciyyələndirir. Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulmuş əsas vəzifənin məqsədi respublikamızda sosial sahədəki vəziyyəti dünyanın inkişaf etmiş ölkələrinin səviyyəsinə yüksəltməkdən ibarətdir.

**Qlobal iqtisadi çağırışlara uyğun yeni inkişaf hədəflərinin müəyyənləşdirilməsi ölkəmiz üçün son dərəcə aktual məsələyə çevrilmişdir. Azərbaycanda Prezident İlham Əliyev tərəfindən yeni yaranan çağırışlara və ölkənin reallıqlarına uyğun milli iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə aparılan islahatlar böyük əhəmiyyət kəsb edir.**

Bu baxımdan, 2016-2020-ci illər üçün strateji inkişaf strategiyası və tədbirlər planı 2025-ci ilədək olan dövr üçün və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı ehtiva edir. Strateji Yol Xəritəsi 12 istiqamət üzrə təsdiq edilmişdir, bunların sırasında milli iqtisadiyyat perspektivi, neft və qaz sənayesinin inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı, ağır sənaye və maşınqayırmanın inkişafı, ixtisaslaşmış turizm sənayesinin inkişafı, logistika və ticarətin inkişafı, maliyyə xidmətlərinin inkişafı, telekommunikasiya və informasiya texnologiyalarının inkişafı xüsusilə əhəmiyyətli və perspektivlidir. Göründüyü kimi, yaxın perspektivdə ölkəmizin milli iqtisadiyyatının inkişaf modelinin əsaslı şəkildə təkmilləşdirilməsi imkanları genişlənir.

Belə ki, Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyilə rəşadətli ordumuz 30 ilə yaxın düşmən tapdağında qalan torpaqlarımızı işğaldan azad etmiş və dərhal böyük həcmli dirçəliş və bərpa işlərinə başlanılmışdır. Ölkəmizdə iqtisadi rayonlaşdırma yenilənmiş, işğaldan azad olunmuş ərazilərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır. Artıq bu ərazilərdə infrastruktur obyektlərinin yaradılması sürətlə davam etməkdədir. Bütün bu amillər Azərbaycanın müstəqil dövlət kimi güclənməsinə, onun milli iqtisadiyyatının strukturunun şaxələndirilməsinə və rəqabətqabiliyyətinin artırılmasına, ölkədə davamlı inkişaf problemlərinin həllində yeni potensial resursların və mənbələrin formalaşdırılmasına əlavə imkanlar verəcəkdir.

Eyni zamanda, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə söykənən "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" qəbul edilmişdir. Bu strategiyanın reallaşması 2026-cı ilin sonuna ölkə iqtisadiyyatının simasında böyük dəyişikliklərə səbəb olacaq, iqtisadi artım tamamilə yeni keyfiyyət amilləri bazasında formalaşacaq, xüsusilə prioritet sahələrdə artım templəri sürətlənəcək, iqtisadiyyatın və məşğulluğun dayanıqlığı daha da güclənəcəkdir.

*Hənifə Cəfərli,*
*Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) dosenti,*
*iqtisad elmləri doktoru*

# Rauf Cəbiyev



***Azərbaycan iqtisad elminə ağır itki üz vermişdir. Görkəmli iqtisadçı alim, Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun baş elmi işçisi, Əməkdar elm və texnika xadimi, RAE-nin müxbir üzvü, iqtisad elmləri doktoru, professor Rauf Cəbiyev ömrünün 89-cu ilində həyata gözlərini əbədi yummuşdur.***

Rauf Cəbiyev 1935-ci ildə Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açmışdır. O, 1954-cü ildə Bakı Maliyyə-Kredit Texnikumunu Dövlət gəlirləri ixtisası üzrə bitirmiş, ali təhsilini K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Sənaye iqtisadiyyatı fakültəsində və S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində almışdır. Eyni zamanda, universitetdə oxuduğu müddətdə (1959-69-cu illərdə) R.Cəbiyev Orconikidze rayon maliyyə şöbəsində müfəttiş, baş müfəttiş, böyük iqtisadçı, dövlət gəlirləri müfəttişliyi üzrə rəis işləmiş, 1969-72-ci illərdə Azərbaycan Nazirlər Kabinetinin Qiymət Komitəsində baş müfəttiş-nəzarətçi və şöbə müdirinin müavini vəzifələrində çalışmışdır.

Rauf müəllim 1972-ci ildən 1976-cı ilədək Azərbaycan Nazirlər Soveti yanında Quşosdor Avtomobil Yolları İdarəsində Planlaşdırma və maliyyə şöbəsinin müdiri, 1977-ci ildən 1982-ci ilədək Azərbaycan Dövlət Plan Komitəsinin nəzdindəki Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda sektor müdiri vəzifələrində çalışmışdır. 1982-85-ci illərdə Dövlət Plan Komitəsində Yeni planlaşdırma metodlarının tətbiqi və iqtisadi təşviqat şöbəsinin müdiri vəzifəsində işləmişdir.

Prof. R.Cəbiyev 1985-90-cı illərdə Azərbaycan Dövlət Plan Komitəsinin nəzdindəki ETİİ-də sektor müdiri, sonralar isə 1997-ci ilə qədər Azərbaycan Dövlət İqtisad İnstitutunun Sənaye iqtisadiyyatı kafedrasının dosenti, kafedra müdiri vəzifələrində çalışmışdır. 1997-ci ildən 2007-ci ilədək İqtisadiyyat Nazirliyinin nəzdində olan İqtisadi İslahatlar Mərkəzində şöbə müdiri işləmiş və 2007-ci ildən ömrünün sonuna kimi Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun baş elmi işçisi vəzifəsində çalışmışdır.

O, 1971-ci ildə maliyyə, pul dövriyyəsi və kredit ixtisası üzrə "Yeni iqtisadi şəraitdə mənfəət və onun stimullaşdırıcı rolu" mövzusunda iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. Bu illərdə o, bir sıra məqalə və monoqrafiyalarını - "İqtisadi mexanizm və onun təkmilləşdirilməsi problemləri" (Bakı), "Respublika sənayesində yenidənqurma" (Moskva), "İqtisadi mexanizmin yekun nəticələri - yaxşılaşdırma" (Bakı) dərc etdirmişdir.

***R.Cəbiyev 1991-ci ildə Donetsk şəhərində, Ukrayna EA Sənaye İnstitutunda doktorluq dissertasiyasını müdafiə etmiş və iqtisad elmləri doktoru elmi dərəcəsini almışdır. 1993-cü ildə ona professor elmi adı verilmişdir.***

Xatırladaq ki, SSRİ-nin dağılmasından əvvəl Rauf Cəbiyevin əsərləri İttifaq və beynəlxalq jurnalların səhifələrində dərc edilirdi. 1991-2019-cu illərdə «Вопросы экономики», «Экономика и жизнь» və digər beynəlxalq jurnallarda məqalələri dərc edilmişdir.

Beləliklə, professor R.Cəbiyev həm ölkədə, həm də xaricdə nəşr olunan 17 monoqrafiya və kitab daxil olmaqla 400-dən çox elmi əsər çap etdirmişdir. R.Cəbiyevin «Государственная политика Азербайджана в инновационной сфере» adlı sonuncu monoqrafiyası 2013-cü ildə Berlində nəşr edilmişdir.

Professor Rauf Cəbiyev iqtisadi mexanizm və onun təkmilləşdirilməsi, bazar infrastrukturunun formalaşması və inkişafı, investisiyalar, dövlət mülkiyyətinin özəlləşdirilməsi və sahibkarlığın inkişafı, innovasiyalar və s. haqqında yaxın və uzaq xarici ölkələrin xüsusi buraxılışlarında və jurnallarında dərc olunmuş fundamental əsərləri ilə tanınır. Professor R.Cəbiyev uzun müddət Azərbaycanın Rusiya, Belarus, Qazaxıstan və Ukrayna ilə xarici iqtisadi əlaqələrinin problemləri üzərində işləmişdir.

***Prof. Rauf Cəbiyev fəaliyyəti dövründə bir sıra mükafatlara, Fəxri fərmanlara layiq görülmüşdür. 2018-ci ildə beynəlxalq jurnallarda standartlaşdırma, sertifikatlaşdırma, keyfiyyət və yenilik problemlərinə dair çoxsaylı məqalələrin dərc olunması ilə əlaqədar olaraq prof. R.Cəbiyev "Avropa keyfiyyəti" qızıl medalı ilə təltif edilmişdir.***

Professor Rauf Cəbiyev həm ölkədə, həm də xaricdə müxtəlif illərdə keçirilən 27 beynəlxalq elmi və praktik konfransda iştirak və çıxış etmişdir.

Hamı Rauf müəllimi yorulmaz tədqiqatçı, fədakar alim, həyat eşqi ilə yaşayan bir insan kimi tanıyırdı. Lakin amansız xəstəlik onu bu günlərdə həyata vida deməyə məcbur etdi. Yaşasaydı hələ neçə-neçə elmi əsərin, böyük elmi layihələrin reallaşmasına nail olacaqdı. Rauf Cəbiyev tanınmış iqtisadçı, görkəmli alim, mehriban ata və sevimli baba kimi onu sevənlərin qəlbində daim yaşayacaqdır.

*Allah rəhmət eləsin!*

**Ziyad Səmədzadə**
**Eldar İbrahimov**
**Qorxmaz İmanov**
**Eldar Quliyev**
**Vahid Novruzov**
**Məhiş Əhmədov**
**Rüfət Quliyev**
**Rəsul Balayev**
**Aytən Səmədzadə**
**Gülşən Yüzbaşıyeva**
**Arzu Hüseynova**
**Akif Vəliyev**
**Elşad Səmədzadə**
**Mansur Barxudarov**
**Allahyar Muradov**

# Azərbaycan BMT Baş Assambleyasının İKT ilə bağlı sessiyasında təmsil olunub

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin əməkdaşları Elgin Abdullayev və Vüsalə Məmmədova ABŞ-ın Nyu-York şəhərində keçirilmiş BMT Baş Assambleyasının informasiya və kommunikasiya texnologiyalarının (İKT) cinayət məqsədli istifadəsi ilə mübarizə üzrə beynəlxalq konvensiyasının yekun sessiyasında iştirak edib.


# ELAN

**A-QROUP sığorta şirkəti yeni ünvanda. 29 yanvar 2024-cü il tarixindən etibarən A-QROUP öz müştərilərini Azadlıq prospekti 3 ünvanında yerləşən yeni ofisində qarşılayır. Şirkətin əlaqə nömrələri dəyişilməyib: *0909 / (012) 377 09 09.**

**A-QROUP 28 il ərzində onlara güvənən və təkrar bərabərlikdən məmnun olan müştərilərinə təşəkkür edir.**

**"Sizə minnətdar olaraq, sizin üçün inkişaf edirik!" – sizin A-QROUP sığorta şirkətiniz.**


# "Həkimlik yeganə sənətdir ki, ömrünün axırına qədər oxumalı, öyrənməli, yeniliyi təqib etməlisən"



*Aynur Səfiyeva Mərkəzi Gömrük Hospitalının Ümumi cərrahiyyə şöbəsinin ümumi cərrahı, t.ü.f.d., Azərbaycan Kolorektal Cərrahi Dərnəyinin elmi katibi, Avropa Koloproktoloji Cərrahi Dərnəyinin Şərqi Avropa üzrə regional təmsilçisidir. 20 ildən çoxdur ki, tibb sahəsində cərrah kimi fəaliyyət göstərir.*

**- Aynur xanım, özünüz və peşəniz haqqında bizə məlumat verərdiniz.**

- Mənim cərrahi fəaliyyətim təkcə praktik fəaliyyət deyil, elmi və ictimai fəaliyyəti də özündə əks etdirir. Təsadüfi deyil ki, apardığım elmi tədqiqat işləri hal-hazırda da davam etməkdədir. Mənim tibb üzrə fəlsəfə doktoru adını almaq üçün apardığım elmi təqdidat işi məhz pararektal fistulların müalicəsinə həsr olunmuşdur. Doktorluq müdafiəm isə "Kolorektal poliplərdə kök hüceyrələrinin klinik əhəmiyyəti" mövzusunda olmuşdur. Bu elmi iş kolorektal poliplərdə kök hüceyrələrinin klinik əhəmiyyətinin araşdırılmasına həsr olunmuşdur. Düşünürəm ki, hər bir həkim təkcə praktik fəaliyyətlə deyil, eyni zamanda yenilikləri öyrənməli, elmi fəaliyyətini də dərinləşdirməli, öz üzərində işləməklə inkişaf etməlidir. Mən özümə borc bilirəm ki, hər il dəyişən rəhbərlikləri öyrənmək üçün həm xaricdə, həm də ölkəmizdə keçirilən elmi-praktik, beynəlxalq səviyyəli konfranslarda, forumlarda aktiv iştirak, həm poster, həm məruzə formatında çıxışlarla, həm də məqalələrlə ölkəmizi təmsil edim. Mənim Avropa Koloproktoloji Cərrahi Dərnəyində də regional təmsilçi olmağım təsadüfi deyil. Məhz 2016-cı ildə Azərbaycandan ilk olaraq ölkəmizi təmsil edən milli təmsilçi seçildim və bununla da çox fəxr edirəm. Avropa Koloproktoloji Cərrahi Dərnəyində milli təmsilçi olaraq öz missiyamı yerinə yetirdikdən sonra Şərqi Avropa üzrə regional təmsilçi nümayəndələrindən biri oldum və bununla da fəxr edirəm.

**- Mərkəzi Gömrük Hospitalında hansı əməliyyatları icra edirsiniz?**

- Elmi fəaliyyətimlə yanaşı, təbii ki, praktik fəaliyyətim də mənim üçün önəmlidir. Mən Mərkəzi Gömrük Hospitalının ilk kadrlarından biri olmuşam. 2009-cu ildən burada çalışıram. Fəaliyyət göstərdiyim bu illər ərzində çalışmışam ki, mənə müraciət edən bütün xəstələrə əldə etdiyim bütün bilik və bacarıqlardan istifadə edərək yardımçı olum. Düşünürəm ki, bu, məndə alınır. Biz hospitalda həm ümumi cərrahi əməliyyatları – yoğun bağırsağın həm açıq, həm də laparoskopik əməliyyatlarını icra edirik, eyni zamanda cərrahi komanda olaraq anal bölgənin bütün xoş və bəd xassəli patologoyalarını özündə əhatə edən bir iş fəaliyyətinə malikik.

Qeyd edim ki, hər bir cərrahın uğurlu olmasının əsas səbəblərindən biri də onun komanda ilə birgə çalışmasıdır. Mərkəzi Gömrük Hospitalının Ümumi cərrahiyyə şöbəsi olaraq, biz artıq 15 ildir komanda şəklində işləyirik və bunun nəticəsidir ki, həm elmi nailiyyətlərimiz, həm praktik nəticələrimiz müsbət və qənaətbəxş hesab olunur.

**- Bu sənəti seçməkdə məqsədiniz nə idi?**

- Əslində, mənim bu sənətə gəlməyim təsadüfi deyil. Bu mənim uşaqlıq arzumdur. Hələ məktəbdən əvvəl, bağça yaşlarında idim, nənəm tez-tez xəstələnirdi və onu tez-tez həkimə aparırdılar. O vaxt mən uşaq ağlımla özümə söz vermişdim ki, böyüyəndə həkim olacağam və nənəmi sağaldacağam. Artıq məktəbdə oxuyarkən həkim olmağı qərara almışdım. Bu arzu həm məktəb illərində, həm də ali məktəbdə oxuyarkən mənim məqsədimə çevrildi. Hədəfim sadəcə yaxşı həkim olmaq idi. Və bu hədəfimə doğru daim inamla irəliləmişəm.

**- Bu sahədə mütəxəssis olmağa qərar verən şəxslər hansısa xüsusi keyfiyyətlərə malik olmalıdırlar?**

- Hazırda həkim, ümumiyyətlə hər hansı bir peşə sahibi olmaq istəyənlərə mənim tövsiyəm o ola bilər ki, hədəflərinizə doğru məqsədli şəkildə irəliləməyi bacarın. Onda bütün nailiyyətləri əldə edə bilərsiniz.

İnsan hədəflərini seçməyi bacarmalı, uğursuzluqdan depressiyaya düşməməli, kiçik uğursuzluq insana yenidən ayağa qalxıb daha böyük uğurlara doğru addımlamaq üçün stimul verməlidir. Həkim olmaq üçün təkcə kitabları oxumaq kifayət deyil. Eyni zamanda, bu peşəni sevmək lazımdır. Sən onu qəlbinlə, ruhunla hiss etməlisən.

**- Aynur həkim, cərrah olmaq istəyənlərə nə məsləhət görürsünüz?**

- Bizim institut illərində xüsusi seçilən bir sahə var idi ki, bu da cərrahiyyə idi. Cərrah olmaq istəyənlər digər peşə sahiblərindən nə ilə fərqlənir? Onlar bir qədər daha cəsarətli qərar verməyi bacarmalıdırlar. Çünki əməliyyat masasında bəzən anında bir qərar vermək tələb olunur ki, bu da insandan risk və cəsarət tələb edir.

Cərrah peşəsinə gəldikdə, mən bu peşəni sevərək icra edirəm. Düşünürəm, dünyada həkim peşəsindən gözəl, humanist peşə yoxdur.

Mən təkcə cərrah olmaq istəyənlərə deyil, həyatında yeni cığır açmaq istəyənlərə, gənc mütəxəssislərə, gənc həmkarlarıma demək istəyirəm ki, sənətinizi sevin, öz üzərinizdə işləməyi, nailiyyətləri təqib etməyi, yeniliklərin dalınca getməyi bacarın, tənbəl olmayın, cəsarətli qərar verin. Təbii ki, bu qərarları verəndə elmə əsaslanın. Həkimlik yeganə sənətdir ki, ömrünün axırına qədər oxumalı, öyrənməli, yeniliyi təqib etməlisən.

**- Müsahibəyə görə sağ olun.**

*Müsahibəni apardı:*
*Dilarə Zamanova,*
*Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi*




**Azəri Light və Brent markalı neftin bir barelinin 8 – 14 fevral tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500